# PEŞƏ MƏKTƏBİ VƏ PEŞƏ LİTSEYİ ŞAGİRDLƏRİNİN İSTEHSALAT TƏCRÜBƏSİ HAQQINDA ƏSASNAMƏ

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 02.05.2000-ci il marixli 403 №-li əmri ilə məsdiq edilmişdir*

**I. Ümumi müddəalar**

1. Peşə məktəbi və peşə litseyinin nümunəvi əsasnaməsinə uyğun olaraq şagirdlərin istehsal təcrübəsi dövlət və qeyri-dövlət, digər sosial partnyorların müasir texnika ilə təchiz edilmiş mütərəqqi texnologiyalı, əməyin təşkili və təhlükəsizliyi baxımından yüksək səviyyədə olan müəssisələrində, fermer təsərrüfatlarında, tikintilərində, xidmət və istehsal sahələrində, təhsil müəssisəsinin tədris-istehsalat emalatxanalarında və təlim təsərrüfatlarında təşkil edilir.

2. İstehsalat təcrübəsi istehsalat təliminin yekun mərhələsi olub onun əsas vəzifəsi öyrənilən ixtisas üzrə şagirdlərin bilik, bacarıq və vərdişlərini möhkəmləndirmək-dən və təkmilləşdirməkdən, onlarda əməyə dərin məhəbbət hissi aşılamaqdan ibarətdir.

3. İstehsalat təcrübəsinin keçirilmə müddətləri, məzmununu və həcmi Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş tədris planı və proqramları ilə müəyyənləşdirilir.

İş yerinin xüsusiyyətindən asılı olaraq istehsalat təc-rübəsi dövründə şagirdlər tərəfindən görüləcək işlərin məz-mununu və həcmini peşə təhsili müəssisəsinin rəhbərliyi müəssisə və təşkilatlarla birgə müəyyənləşdirir.

4. İstehsalat təcrübəsində şagirdlərin iş gününün məhsuldarlığı peşə üzrə tədris planında istehsalat təlimi üçün nəzərdə tutulmuş həftəlik dərs yükünə müvafiq təyin edilir, bununla belə iş gününün uzunluğu qanunvericiliklə müəyyənləşdirilmiş müddətdən artıq olmamalıdır. On səkkiz yaşa qədər olan şəxslərin əməyinin tətbiq olunması qadağan edilən ağır və zərərli əmək şəraitli istehsalat sahələrində iş gününün uzunluğu 4 saatdan artıq olmamalıdır.

Şaxtalarda və dağ-mədən sənayesində, digər təhlükəli iş yerlərində 20 yaşına çatmış şagirdlərə istehsalat təcrübəsi keçməyə icazə verilir.

Şagirdlər istehsalat təcrübəsi dövründə iş yerlərinə müəssisənin sərəncamı ilə bölüşdürülür.

5. Mexanizator peşələri üzrə:

-şagirdlər tərəfindən aqreqatları idarəetmə vərdişlərinin mənimsənilməsi vəziyyətini, onların aqreqatların istismarı və əmək təhlükəsizliyi, yol hərəkəti qaydalarına dair bilikləri yoxlanmalıdır. Yoxlama aparmaq üçün tərkibinə məktəbin (litsey) direktoru və ya tədris-istehsalat işləri üzrə direktor müavini, baş usta, istehsalat təlimi ustaları ol-maqla komissiya yaradılır. Yoxlamanın nəticələri protokol-laşdırılır;

-16 yaşdan kiçik olmayan şagirdlərə istehsalat təcrübəsi dövründə traktorları (özüyeriyən maşınları) idarə etmək hüququ olması haqqında müvəqqəti vəsiqə (əlavə 3) verilir. Biliklər yoxlanan zaman müsbət qiymət ala bilməyən şagirdlərə müvəqqəti vəsiqə verilmir. Onlar istehsalat təcrübəsini təlim təsərrüfatında keçir, yaxud ixtisası üzrə dublyor işləmək üçün fermer və digər təsərrüfatlara göndərilir.

6. Tədris qrupunun istehsalat təcrübəsinə istehsalat təlimi ustası rəhbərlik edir.

İstehsalat təlimi ustası peşə üzrə təcrübə keçən şagirdlərin iş yerlərinə düzgün bölüşdürülməsi, istehsalat təlimi üzrə tədris plan və proqramlarının yerinə yetirilməsi, şagirdlər tərəfindən əmək intizamı, əmək təhlükəsizliyi tələblərinin gözlənilməsi, avadanlığa və alətlərə qayğı ilə yanaşılması, material və enerjinin qənaətlə işlədilməsi, şagirdlərdə texnoloji intizamın tərbiyə edilməsi, normanın

yüksək və keyfiyyətlə yerinə yetirilməsi üçün məsuliyyət daşıyır.

7. Sosial partnyorların və digər istehsalat sahələrinin rəhbərləri şagirdlərin istehsalat təcrübəsinə və istehsalat şə-raitində təlimə rəhbərlik etmək üçün mühəndis-texniki işçi-lər və ixtisaslı fəhlələr ayırırlar.

İstehsalat təcrübəsinə (istehsalat təlimi) rəhbərlik üçün işçilərə müəssisəsinin daxili imkanları hesabına maddi maraq yaratmaq üçün əlavə əmək haqqı verilə bilər (şagirdlərin sayından asılı olaraq orta aylıq əmək haqqının 5-30 faizi qədər).

Aşağıdakı hallarda mühəndis-texniki işçilərdən və ixtisaslı fəhlələrdən istehsalat təcrübəsinə rəhbərlər ayrılır:

-texniki cəhətdən mürəkkəb qurğulara və avadanlığa xidmət etməklə bağlı olan işlər üzrə şagirdlərin ixtisaslaşmasında və çox təhlükəli, yaxud zəhərli istehsalat şəraitində;

-yüksək təzyiqlə işləyən aparat və aqreqatlarlarda, şaxtalarda, ötürmə xətlərində və s. təmir və onlara xidmət edən səyyar briqadaların tərkibində:

-istehsalat şəraitinə görə istehsalat təlimi ustalarının iştirak etməsi nəzərdə tutulmayan sexlərdə və sahələrdə is-tehsalat təcrübəsi zamanı;

-təcrübə keçən şagirdlər tərəfindən yeni avadanlıq və mütərəqqi texnoloji proseslər mənimsənildikdə və müvafiq mütəxəssislərin, yaxud ixtisaslı fəhlələrin daimi müşahidəsi və köməyi lazım olduqda.

Belə hallarda bu əsasnamənin 6-cı bəndinə uyğun olaraq itehsalat təlimi ustasının tədris qrupuna rəhbərlik etmək, şagirdlər tərəfindən istehsalat tapşırıqlarının və qoyulmuş normaların yerinə yetirilməsinin yekun uçotunu aparmaq, habelə istehsalat təlimi proqramını və istehsalat təlimi ustasına həvalə edilmiş digər vəzifələri yerinə yetirmək məsuliyyəti onun üzərindən götürülmür.



Şagirdlər istehsalat təcrübəsində olan dövrdə müəssisə rəhbərləri istehsalat təlimi ustalarını, bu məsələdə həmin kateqoriyalı işçilər üçün müəyyən edilmiş qaydada mükafatlandıra bilər. Belə olan halda həmin ustaya məktəbdə (litsey) istehsalat təcrübəsi müddətində istehsalat planının yerinə yetirilməsinə görə mükafat verilmir.

8. Şagirdlər peşələr üzrə iş yerlərinə bölüşdürülən andan başlayaraq onlara standartların və təlimatların tələblərinin, əmək mühafizəsinin qayda və normalarının, daxili intizam qaydalarının, müvafiq peşələr və fəhlələrin ixtisaslaşma səviyyəsi üzrə müəssisələrdə qüvvədə olan digər norma və qaydaların yerinə yetirilməsi aid edilir, bütün qulluqçu və fəhlələrlə eyni qaydada onların üzərinə sosial sığorta qoyulur.

9. Şagirdlərin istehsalat təcrübəsi ixtisas (sınaq) işlərinin yerinə yetirilməsi ilə başa çatır.

10. Təhsil müəssisəsi və sosial partnyorlar (digər istehsalat sahələri) istehsalat təcrübəsinin başlanmasına bir ay qalmış 1 nömrəli əlavədə göstərilmiş formada həmin müəssisədə şagirdlərin istehsalat təcrübəsi keçməsinə dair müqavilə bağlayırlar. Müqavilədə təcrübəyə göndərilən şagirdlərin sayı (peşələr üzrə), istehsalat təcrübəsinin müddəti, şərtləri və qaydaları, müvafiq istehsalat, sanitariya-gi-giyena tələbləri və iş şəraiti, tərəflərin digər qarşılıqlı öh-dəlikləri göstərilir.

11. Bu əsasnamə peşə məktəbi və peşə litseyləri, habelə şagirdləri istehsalat təcrübəsinə qəbul edən bütün dövlət və qeyri-dövlət müəssisələri üçün məcburidir.

**II. Şagirdlərin istehsalat təcrübəsinin təşkili sahəsində peşə məktəbi və peşə litseyinin vəzifələri.**

12. Peşə məktəbi və peşə litseyinin vəzifələri aşağıdakılardır:

12.1. Tədris plan və proqramlarında müəyyən edilmiş dövrdə şagirdləri müəssisələrə (dövlət və özəl) istehsalat təcrübəsinə (istehsalat şəraitində təlim keçməyə) göndər-mək, müəssisə ilə istehsalat təcrübəsinin müddətlərini və təcrübədə şagirdlərin işlərini razılaşdırmaq və müqavilə bağlamaq (əlavə №1);

-şagirdlərə müəssisədə mövcud olan daxili əmək intizamı, əməyin mühafizəsi, yanğın təhlükəsizliyi qaydalarını, sanitariya-gigiyena tələblərini, texniki təhlükəsizlik üz-rə təlimatı, müvafiq peşə və müəssisə fəhlələrinin ixtisas sə-viyyəsi üçün qoyulmuş norma və qaydaları öyrətmək;

-şagirdlər tərəfindən maşınların, dəzgahların, sənaye qurğularının, komplekslərin və digər texnika və avadanlığın istismarı qaydalarının gözlənilməsini təmin etmək;

-onlara verilən fərdi mühafizə vasitələrindən düzgün istifadə olunmasına, şagirdlər tərəfindən xammalın, materialların, enerjinin və başqa ehtiyatların qənaətlə sərf edilməsini təmin etmək.

13. Peşə məktəbi və peşə litseyi istehsalat təcrübəsinə tədris metodiki rəhbərliyi həyata keçirir, peşələr üzrə tədris proqramlarının tələblərinə, müəssisədə qüvvədə olan stan-dartlara, texniki şərtlərə, təhlükəsiz əmək qaydalarına və normalarına uyğun olaraq istehsalat tapşırıqlarının yerinə yetirilməsi üçün şagirdlərin alət və avadanlıqla, iş yerləri ilə, materiallarla, lazımi cihaz və aparatlarla təmin olun-masına nəzarət edir; şagirdlər tərəfindən istehsalat norma-larının yerinə yetirilməsi vəziyyətini yoxlayır, onların gör-düyü işlərin uçotunu aparır, müəssisə ilə birlikdə şagird-lərin və təlimatlandırılmasını, istehsalatda tətbiq olunan yeni texnikanın və texnologiyanın, peşə üzrə qabaqcıl fəhlələrin iş üsullarının və metodlarının öyrənilməsini təşkil edir və beləliklə təcrübə keçən şagirdlər tərəfindən istehsalat tapşırıqlarının müvəffəqiyyətlə yerinə yetirilməsinə, əmək məhsuldarlığının yüksəldilməsinə nail olurlar.



14. Peşə məktəbi və peşə litseyi müəssisənin, digər istehsalat və xidmət sahələrinin müdiriyyəti, ictimai təşkilatları ilə birlikdə şagirdlərlə təlim-tərbiyə işi aparır, əmək kollektivinin fəaliyyətində onların fəal iştirakını təmin edir.

### III. Peşə məktəbi və peşə litseyi şagirdlərinin istehsalat təcrübəsinin təşkili sahəsində müəssisənin vəzifələri.

15. Müəssisə, fermer təsərrüfatı və digər istehsal sahələri istehsalat təcrübəsi haqqında müqaviləyə əsasən təcrübə keçən şagirdlərin sayını, peşələri və iş yerlərini, işin növlərini, əmək haqqının ödənilməsi sistemini, mühəndis-texniki işçilərdən və ixtisaslı fəhlələrdən təcrübənin aparılması üçün ayrılan məsul şəxsləri göstərməklə şagirdlərin istehsalat təcrübəsinə qəbul edilməsi haqqında müvafiq sərəncam verir.

16. Müəssisə rəhbərliyi peşə məktəbi və peşə litseyinin şagirdləri müəssisədə istehsalat təlimi və istehsalat təcrübəsi keçən dövrdə onlar üçün sağlam və təhlükəsiz iş şəraiti ilə təmin edir.

17. Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilən peşə məktəbi və peşə litseyinin nümunəvi əsasnaməsinə uyğun mülkiyyət formasından asılı olmayaraq müəssisə tədris proqramına əsasən şagirdləri ixtisası üzrə iş yerləri, avadanlıq, material, alət və texnika ilə təmin edir, onlar tərəfindən yeni texnikanın, mütərəqqi tex-nologiyaların öyrənilməsi üçün şərait yaradır.

18. İstehsalat təcrübəsi başa çatmazdan qabaq müəssisə şagirdlərin ixtisas (sınaq) işini yerinə yetirməsi üçün lazımi avadanlıqla təchiz olunmuş iş yerləri, materiallar, alətlər və s. ayırır, hər bir şagirdə 2 №-li əlavədə göstərilən formada istehsalat xasiyyətnaməsi verir. Xasiyyətna-

mədə istehsalat təcrübəsi dövründə şagirdlər tərəfindən yerinə yetirilən işin məzmunu və keyfiyyəti, hasilat normasının yerinə yetirilməsi, məhsulun keyfiyyəti, əməyə münasibəti və məsləhət görülən peşə dərəcəsi göstərilir. Müəssisə məktəbin (litsey) dövlət buraxılış imtahan komissiyası üçün nümayəndələr ayırır.

19. Müəssisəsinin iş yerlərində təcrübə (təlim) keçən şagirdlər arasında bədbəxt hadisə baş verərsə bu, qanunvericilikdə nəzərdə tutulan qaydada təhqiq edilir.

### IV. Şagirdlərin əməyinin ödənilməsi

20. Müəssisə istehsalat tapşırıqlarına əsasən istehsa-lat təcrübəsi (təlim) dövründə şagirdlər tərəfindən yerinə yetirilən bütün işlərə görə müəssisə üçün qəbul olunan qay-daya uyğun olaraq əmək haqqı hesablayır.

21. İstehsalat təcrübəsi dövründə şagirdlər müəssisə-nin günahı üzündən boş dayanarsa, onlara əmək haqqı müəssisənin işçiləri üçün müəyyən edilmiş qaydada hesab-lanır.

22. Müəssisə şagirdlərin qazandığı məbləği bütövlükdə 3 gün ərzində məktəbin (litsey) hesabına köçürür. Məktəb (litsey) qanunvericiliklə müəyyən edilən həcmdə yerinə yetirdikləri iş üçün şagirdlərə əmək haqqı verir.

23. İstehsalat təcrübəsi dövründə iş qabiliyyətini müvəqqəti itirməsi, hamiləliyə və doğuma görə məzuniyyət üçün müavinəti məktəb (litsey) "Müavinətlərin verilməsi haqqında əsasnamə"nin şərtləri əsasında müəssisə tərəfindən hesaba köçürülən vəsaitdən ödəyir.

24. Şagirdlər ayrı-ayrı peşələr üzrə məhsul istehsal etmədən dublyor kimi istehsalat təcrübəsi keçdikdə onlara əmək haqqı hesablanmır.



*Əlavə № 1*

**Peşə məktəbi və peşə litseyi şagirdlərinin istehsalat təcrübəsi haqqında müqavilə (nümunə)**

_______________________________ 20_____ il

bir tərəfdən _______________________________
(təhsil müəssisəsinin adı və nömrəsi)

_______________________________

_______________________________
(şəhər, qəsəbə)

təhsil müəssisəsinin direktoru _______________________________

_______________________________
(soyadı, adı, atasının adı)

_______________________________ şəxsində və digər tərəfdən

_______________________________
(müəssisə, təşkilat, idarə, xidmət sahəsi və s.

_______________________________
istehsalat sahələrinin adı)

_______________________________
(vəzifəsi, soyadı, adı, atasının adı)

_______________________________ şəxsində aşağıdakı müqaviləni başladılar.

1. Peşə məktəbi və ya peşə litseyi aşağıdakıları öhdəsinə götürür.

1.1. İxtisaslı fəhlələrin hazırlanmasına dair təlris plan və proqramlarına əsaslanaraq ________ 20______il tarixindən ________ 20_____ il tarixə kimi ________________ peşərə üzrə ____________ qrupun ____________ şagirdlərini istehsalat təcrübəsinə göndərməli. Peşələr üzrə hər bir qrupun istehsalat təlimi

ustasının soyadı, adı atasının adı, göstərilməklə tədris qrupları üzrə şagirdlərin siyahısı əlavə olunur;
1.2. Müəssisəyə istehsalat təcrübəsinə göndərilən şagirdlərin ilk peşə hazırlığını, onlar tərəfindən istehsalat avadanlığının texniki istismar qaydalarını, iş yerlərində və müəssisələrin (təşkilatın, idarənin, digər istehsal sahələrinin) ərazisində davranış qaydalarını, təhlükəsizlik iş qaydalarının və normalarının öyrənilməsi və bunlara riayət olunmasını təmin etməli;

Təcrübə dövründə müəssisədə mövcud olan əmək intizamı qaydaları şagirdlərə də aid edilir;
1.3. İstehsalat təlimi ustaları vasitəsilə şagirdlərin tədris işlərini təşkil etməli və istehsalat təcrübəsinə rəhbərliyi həyata keçirməli.
2. "Müəssisə" aşağıdakıları öhdəsinə götürür.
2.1. Təcrübə keçən şagirdləri peşəyə müvafiq olaraq iş yerləri və istehsalat tapşırıqları, sənədlər, texniki və xidmət vasitələri ilə təmin etməli, boş dayanmalara, şagirdlərdən məktəbdə (litsey) aldıqları peşəyə aid olmayan işlərdə istifadə edilməsinə yol verməməli;
2.2. Şagirdləri təzlükəsiz əmək şəraiti və müvafiq sanitariya texniki normalarla, fərdi mühafizə vasitələri ilə müəssisədə (təşkilatda, idarədə və digər sahələrdə) müvafiq kateqoriyalı işçilər üçün mövcud olan normalar əsasında iş paltarı və ayaqqabıları ilə, alətlərlə, paltarları və s. saxlamaq üçün yerlərlə təmin etməli;
2.3. Şagirdlər tərəfindən yerinə yetirilən işlərin uçotunu aparmalı, məktəbə (litsey) hər bir şagirdin əmək haqqı məbləğini göstərməklə cədvəl təqdim etməli və bu məbləği hər ayın ______________ dək məktəbin (litsey) cari hesabına köçürməli;
2.4. Məktəbə (litsey) istehsalat təcrübəsinin nəticələri üzrə hər bir təcrübə keçən şagird üçün istehsalat xasiyyətnaməsini təqdim etməli.



3. "Müəssisə" şagirdləri istehsalat təcrübəsi keçmək üçün peşə üzrə tədris proqramlarının tələblərinə cavab verən iş yerləri ilə təmin etmədikdə, müntəzəm surətdə onların boş dayanmalarına yol verdikdə və lazımi iş şəraiti yaratmaqdıqda, habelə şagirdlərin əməyindən qeyri-ixtisas işlərində istifadə etdikdə məktəb (litsey) şagirdləri (müəssisə, idarə və s. təşkilatlardan) istehsalat təcrübəsindən geri çağırır.

______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________

4. Bu müqavilə üzrə meydana çıxan mübahisələr Təhsil Nazirliyinə çatdırılır və müəyyən olunmuş qaydada həll edilir.
Bu müqavilə ____________ nüsxədə tərtib edilmiş və hər tərəfdə______ nüsxə saxlanır.

**İmzalar və tərəflərin hüquqi ünvanları:**

"Təhsil müəssisəsi" "Müəssisə"

M.Y. M.Y.

*Əlavə № 2*

_____________№-li peşə məktəbinin və ya peşə litseyinin
________________________________________________ şagirdi
(peşə və qrupun nömrəsi)
________________________________________________ üçün
(soyadı, adı, atasının adı)

## İstehsalat xasiyyətnaməsi

1. _____20____il tarixindən __________20___il tarixədək istehsalat təcrübəsi dövründə şagird
________________________________________________
(soyadı, adı, atasının adı)
________________________________________________
(müəssisənin, təşkilatın, idarənin adı)
________________________________________________
(iş yerlərini və əsas iş növlərini göstərməklə)
________________________________________________
________________________________________________
________________________________________________
________________________________________________
tapşırıqlarını yerinə yetirmişdir.

1.1. Yerinə yetirilmiş işlərin keyfiyyəti.
________________________________________________
(qiymət)

1.2. Müəyyən edilmiş normanın yerinə yetirilməsi:
Təcrübə dövründə __________________________________
(göstərici)



Təcrübənin axırıncı ayında ______________________________
________________________________________________
(göstərici)

1.3. Texnoloji prosesləri bilməsi, avadanlıqla, cihaz və alətlərlə rəftarı
________________________________________________
________________________________________________
________________________________________________
________________________________________________
(ətraflı rəy yazmaq)

1.4. Əmək intizamı __________________________________
(qiymət və rəy)
________________________________________________
________________________________________________
________________________________________________

2. Şagird __________________________________________
(soyadı, adı, atasının adı)
__________________________________________ istehsala
т
(qiyməti)

hazırlığı göstərmiş və
peşəsi üzrə ____________________________________
(dərəcə, sinif, kateqoriya)
ixtisasın verilməsinə layiqdir.

İmzalar:

Sex (istehsalat) rəisi ____________________

Usta (briqadir) ____________________

İstehsalat təlimi
ustası ____________________

M.Y.

*Əlavə № 3*

**Müvəqqəti vəsiqə**

Verilir__________________________________________
(məktəbin (litsey) adı)

__________20____ildə anadan olmuş________nömrəli qrupun şagirdi______________________________lazımı
(adı, atasının adı, soyadı)

nəzəri və praktiki hazırlıq aldığına görə onu 20______ ildən istehsalat təcrübəsi______________________________________

________________________________________________

________________________________________ müstəqil işləməyə
(traktorların, özüyeriyən maşınların markası)
buraxmaq olar.

Məktəbin (litsey) direktoru

İstehsalat təlimi ustası

Həmkarlar komitəsinin sədri

M.Y.

Verilib "_____"____________20___ il



## PEŞƏ MƏKTƏBİ VƏ PEŞƏ LİTSEYİNİN TƏDRİS-İSTEHSALAT EMALATXANASI HAQQINDA ƏSASNAMƏ

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 15.03.2000-ci il marixli 250 №-li əmri ilə məsdiq edilmişdir*

**I. Ümumi müddəalar.**

1. Peşə məktəbi və peşə litseyində tədris-istehsalat emalatxanası hazırlanan peşə üzrə mövcud texniki tələblərə, təhlükəsizlik texnikası və sanitariya-gigiyena normalarına müvafiq yaradılır və bu əsasnaməyə uyğun fəaliyyət göstərir.

2. Tədris-istehsalat emalatxanası peşə təhsili müəssisəsinin struktur bölməsi olub burada müvafiq peşə üzrə şagirdlərin istehsalat təlimi və ictimai faydalı əməyi təşkil edilir.

3. Tədris-istehsalat emalatxanasında istehsalat təlimi prosesində şagirdlərdə peşə bacarığı və əl vərdişləri forma-laşdırılır, tədris plan və proqramına uyğun olaraq tədrisin əyani və təlimin texniki vasitələri, sinif-laboratoriya ava-danlığı, mebel, tikiş məmulatı, xalq istehlakı malları isteh-sal olunur, pullu xidmətlər göstərilir, təmir işləri yerinə ye-tirilir və başqa tapşırıqlar həyata keçirilir.

4. Emalatxanada tədris-istehsalat prosesinə xidmət etmək üçün alət, məmulat hazırlama bölmələri, material və hazır məhsullar anbarı, başqa köməkçi xidmət sahələri yaradılır.

**II. Tədris-istehsalat emalatxanasının fəaliyyəti.**